# BORC DAŞ YÜKÜDÜR

Bəri başdan bir hökm verək: BORC DAŞ YÜKÜDÜR, qaldırmasan ağırlığını bilməzsən.

Hər bir insan müstəqil varlıqdır. Bu və ya digər dərəcədə özünü idarə edən düşüncəyə, kimliyini müəyyənləşdirən dünyagörüşə, ətraf aləmdən fərqləndirən hisslərə, duyğulara, meyillərə, istəklərə malikdir. Ancaq burası da var ki, bu varlıq nə qədər müstəqil və fərqləndirici keyfiyyətlərə malik olsa da, onu yetirən mühitlə, əhatə edən aləmlə, dostları, doğmaları ilə və əlbəttə ki, onu dünyaya gətirib, böyüdən varlıqlarla - ata-ana ilə gözə görünməz min tellərlə bağlıdır. İnsan bu əlaqələri itirəndə onun yaddaş mexanizmi dağılır və beləliklə, itirilmiş yaddaşın fonunda manqurt obrazı formalaşır. Əlbəttə, bu obrazın mənəvi psixoloji əsaslarını, mifik mənşəyini ölməz Çingiz Taneke "Əsrə bərabər gün" romanında - "Naiman ana" hekayətində çox təsiredici bir tərzdə işləyib.

Şəfəq Nasirin "Borc" hekayəsi var. Çox təsirli, günümüzün reallıqları ilə bağlı və bəlkə də, dəyərini heç vaxt itirməyəcək bir həyat hekayəsidir.

Borcun psixoloji mahiyyəti, onun ağırlığı, daşınma məsuliyyəti, hər kəsi düşündürəcək mənəvi yük dərəcəsi bu hekayənin mahiyyətində həyatdan alınmış obrazlar vasitəsilə üzə çıxarılır.

"Borc" hekayəsini oxuduqca təkcə həyatda gördüyüm və şahidi olduğum mənzərələr yox, elə ədəbiyyatda da rastlaşdığım bədii düşüncə faktları gözlərimin önündə canlandı. Və "canlandı" sözünü burada təsadüfi işlətmirəm. Sanki, Əli Kərimin "Qaytar ana borcunu" şeiri canlı bir timsal olaraq məni birinci yad sal, - dedi. Ana yol gözləyir, böyüdüb şəhərə göndərdiyi oğulun qayıdacağı yolu... oğul isə...Şəfəq Nasirin "Borc" hekayəsinin mənəvi zirvəsinə qalxdıqca gözlərimin önündə Qarabağ canlandı... Və Elçin Mehrəliyevin "Yurd" teletamaşası. Qarabağ təhlükə altındadır. Onu hər tərəfdən qəzəbli təcavüz dalğaları döyür. İşğalçı niyyət caynaqları didməkdədir. Yurdun rəmzi olan Mahal kişi böyüdüb şəhərə göndərdiyi oğullarının arxasınca baxır. Axı onların hər biri nüfuz sahibidir. Mahal kişini yandıran odur ki, axı oğullarını Qarabağın bu günü üçün böyüdüb, Qarabağın darda qalan günü üçün böyüdüb.

Bilmirəm, bəlkə də yaşadığımız həyatın ümumi ahəngi ilə bağlıdır, ya bəlkə mühitin özündən gələn təsirdir. Mən Şəfəq Nasirin Qarabağ hadisələrindən öncə qələmə alınmış hekayələrində yazıçı intuisiyası ilə hadisələri qabaqlayan motivləri tam aydınlığı ilə görürəm. Məşhur filmdə deyildiyi kimi: "telepatiya, yoxsa yazıçı intuisiyası?"

Ümumi ənənəyə uyğun olaraq hekayənin məğzi bundan ibarətdir ki, paytaxtdan 400 km məsafədə olan uzaq bir kənddə Səltənət ana xəstədir, yaşı çoxdur, qışın çovğununda, boranında köhnə dədə-baba diliylə desək, bir damın altında tək-tənha qalıb. Şəfiqə adlı qonşu qızının ümidinə qalan Səltənət ana qara qızdırmanın içində yanır. Onun həyat uğrunda mübarizə gücü tükənməkdədir. Və belə bir zamanda oğullarını görmək ümidi ilə çırpınır. Bəlkə də onu hələ bir neçə gün bu ümid yaşadacaq. Və son mənzilə o zaman rahat köçə bilər ki, həyat işığı sönməkdə olan gözləri sonuncu dəfə Nemətini görsün. Hümbətinin əlindən tutsun, Hikmətinin ona təskinlik verən səsini eşitsin. Gözləri ilə sonbeşiyi Rüfəti öpsün.

İntizarlı məqamlar axır ki, ananı dilə gətirir. Ona əvəlikli umacla şəfa vermək istəyən Şəfiqədən xahiş edir ki, oğullarının ünvanına teleqram vursun. Hər dəfə də külək bayırda nəyisə tərpədəndə, elə zənn eləyir ki, indi bu saat, bu dəm oğulları qapını açıb içəri girəcək. Ancaq hər dəfə Şəfiqə ona izah edir ki, qapı-bacanı döyən tufandır, küləkdir, qışın sazağıdır.

Müəllif hekayəni Səltənət ananın böyük oğlu Nemətin təqdimi ilə başlayır: "Nemət müəllim buxarının qabağındakı təkərli kürsüdə yırğalana-yırğalana gündəlik poçtu nəzərdən keçirirdi. Bu zaman qəzet-jurnalların arasından bükülü bir kağız yerə düşdü. Qaldırıb baxdı. Teleqramdı. Açıb oxudu: "Nemət, oğul, səni görmək istəyirəm. Üzümüzə gələn şənbə-bazar yolunu gözləyəcəm. Anan Səltənət" başını buladı: "İlin-günün bu vaxtında, deyən, arvadın kefi gəlib". Orta evdən qızı səslədi:

-Pap, podnimi tam trupku, dyadya Qumqat prosit tebya!

Nemət müəllim dəstəyi qaldırdı.

-Hə eşidirəm, xeyir ola?

-Xeyirdi. Şənbə günü balıq ovuna gedirik, həvəsin var?

-Gedərdim, amma banketimiz var. Özü də institutun müəllimləri tamadalığı mənim boynuma qoyublar.

-Hə, sənnən ötdü... mənə bax, yaxşı yadıma düşdü. Anamızdan teleqram almışam, yazıb ki, "Hümbət, oğul, səni görmək istəyirəm. Üzümüzə gələn şənbə-bazar yolunu gözləyəcəm".

Nemət müəllim təəccübləndi:

-İşə bax ey, toçnu elə məzmunda teleqram mənə də göndərib. Dəstəkdə Hümbətin xırıltılı gülüşü eşidildi.

-Deyəsən qocalanda o söz... elə dizinin dibində adam istiyir. Deyən gərəkdi, ay arvad, indi bekar adam var ki, 400 km maşın qov ki, nə var, nə var, gəlmişəm səni görməyə.

-Hə, elə mən də o cür düşünürəm, əşi işində ol, ovundan qalma.

-Yaxşı, xudahafiz.

Nemət müəllim dəstəyi asıb, kürsünün içində başını yana əyib mürgülədi". Əslində bu hekayəni bir neçə hissəyə ayırmaq olar və elə buradaca birinci hissəni bitmiş hesab etmək olar. Çünki biz burada Səltənət ananın böyük oğlu Neməti və ikinci oğlu Hümbəti çox aydınlığı ilə görürük. Qısaca bir parçanın içərisində müəllifin yaratdığı canlı dialoq onların hər ikisinin mənəvi mühitini çılpaqlığı ilə göstərir. Ana haqqına arxa çevirmək və ümumiyyətlə, övladlıq borcunun nədən ibarət olduğunu unutmuş bu oğulların həyat tərzi, düşüncə aləmi o qədər idbar və mənəviyyatsızdır ki... Hətta onları xarakterizə etmək üçün sözün özü belə acizlik göstərir. Hər iki qardaş teleqramı alıb. Ana haqqına korluq o qədər dərəcədə güclüdür ki, hətta teleqramın mətni belə, onlarda heç bir hiss və həyəcan doğurmur. Özlərinə məxsus boz həyat tərzindən korşalmış dşüncələri ilə ayırmaq fikrində deyillər. Ana onları şənbə-bazar günlərində gözləmək niyyətində olsa da, öz planları haqqında düşünürlər. Hümbət ova gedəcək. Şənbə-bazar günü tilov atıb balıq tutacaq. Nemət isə işlədiyi institutun hansı məqsədləsə təşkil olunmuş banketində tamada olacaq. Hekayənin ümumi məğzindən anlaşılır ki, Nemət işlədiyi institutda nüfuz sahibidir. Hələ bir az da belə bilmək olur ki, elmi-tədqiqat müəssisəsinin beş-on nəfər baş bilənindən biridir. Axı hər halda alimlərin məclisində tamada olmaq üçün dilin, ağzın, bir az da elmin və rəhbər nüfuzun olmalıdı. Hekayədən görünür ki, birinci hissədə təqdim olunan ikinci oğul Hümbət də kifayət qədər imkanlıdır. Qışın soyuğuna, sazağına baxmayaraq, şənbə-bazar günü istirahəti haqqında düşünmək gücündədir. Hesabla gərək belə oğulları olan ananın çağırışı cavabsız qalmayaydı. Bu çağırış ona görə cavabsız qalır ki, onların düşüncəsində ana bir növ köhnəlmiş paltardır və ondan imtina etməyin vaxtı çoxdan çatıb.

Mənəviyyatın eybəcərliyi, ana haqqına biganəliyin həddi o yerə çatıb ki, onlar ana çağırışını hətta istehza ilə qarşılayırlar. Təkcə elə bircə cümləyə təzədən diqqət edək: "Deyən gərəkdi ki, ay arvad, indi bekar adam var?" Oxucu isə bu bekar olmayan oğulların "vacib" işlərini yada salıb (birinin tamadalıq edəcəyi məclisi var, digərinin də balıq ovu günüdür) acı təəssüf hissi keçirir. Bəs bu oğulları bu qədər biganə edən, kökündən, varlığından ayıran, onları anaya bağlayan gözəgörünməz min telləri hansı mühit qırıb, hansı mühit onları öz köklərindən ayırıb?

Əsərin motivi istər-istəməz bizi Qarabağın işğallı günlərinə qaytarır. Orda insanlar mərkəzə ümidlə baxır, teleqramlar göndərir. Ara-sıra jurnalistlərin çəkdiyi kadrlarla yardım istəyir, yalvarır, köməyə çağırırdılar. Bir-birinin arxasınca Qaradağlı, Malıbəyli faciələri baş verir. Xocalı soyqırımı dəhşətin özü kimi tarixin ən qanlı cinayəti olaraq hər kəsi ittiham edir.

İnsanlar biganədirlər, lənətə gəlmiş mənafe hissləri, hakimiyyətə can atmaq, mənsəb düşkünlüyü milli səfərbərliyə imkan vermir, düşüncələr o qədər korşalıb ki, faciənin bir addımlığında olsalar belə, onun miqyasını görmür, təsəvvür etmirdilər.

Şəfəq Nasirin "Borc" hekayəsinin dəyəri bundadır ki, hələ hadisələr baş verməmiş qələmə alınıb və hadisələrin bütün miqyasını rəmzləşdirə bilib.

Şəfəq Nasir "Borc" hekayəsində ifşaedici üslubunu davam etdirir. Sanki ananın düşdüyü vəziyyətin çıxılmazlığını anlamaq üçün oğullarının şəhərdəki əhvalını bütün çılpaqlığı ilə öz oxucusuna göstərmək istəyir: "Beş-on dəqiqə keçməmiş qızının cır səsinə diksindi.

-Pap, podnimi tam trupku, dyadya Xikmət prosit tebya!

Nemət müəllim dəstəyi qaldırdı.

-Hə, eşidirəm.

-Qardaş, salam! İşindən eləmədim ki?

-Buxarının qabağında təzəcə gözümün çimirini alırdım ki, sən də bu yandan bannadın. -Kəsik-kəsik güldü. - Nədi, qoymazsan istirahətimizi eliyək?

Hikmət də eyni zarafatla mətləbə keçdi.

-Süliddin qoysa, eliyərik istirahəti.

Nemət kürsüdə dikəldi. - Neyniyir Süliddin?

-Evlənmək istəyir. İki ayağını dirəyib bir başmağa ki, şənbə günü elçi gedin. Deyir, sən bir də üç əmim gedəsəniz bəsdir. Ha fikrindən yayındırıram, olmur. Özünüz bilin, deyir, getməsəniz, götürüb qaçacam.

-Küçüyün nə vaxtıdı? İnstituta təzəcə qoymuşuq ki, indi həvəsiyir, bir yanı ayazda qalanda xəbər alaram. Arvad saxlamaq hasandı, bəyəm? Dirə ağzını daşdığa.

-Diriyirəm, vallah, batmır ey, beyninə. Ama bilirsən nə var, qızdan da keçməli deyil. Orduxanovun qızıdı.

Nemət müəllim kürsüdən sıçradı.

-Nə danışırsan, ministir Orduxanov?

-Hə, hə!

-Sağ ol səni. Süliddin bala! Qıznan alış-verişləri varmı?

-Bir kursda oxuyurlar, kəsmət kəsiblər. Deyib ki, ailəmizin bircə dənəsiyəm, kimə istəsəm, papam ona da verəcək. Deyib elçini göndər.

Nemət müəllim otaqda gəzinə-gəzinə qardaşına tapşırıqlar verdi:

-Sən belə elə. Elçiliyi sal bazara. Şənbə günü vacib işim var. Hümbətə, Rüfətə də xəbər elə. Yığışaq sizə, gedək. Uşağın ürəyini sındırma. Atalar deyib, tez evlənənlə tez oyanan uduzmaz. Oldumu?

-Baş üstə! Qardaş, yadıma düşmüşkən bir sözdə deyim. İndicə kənddən teleqram almışam. Anam yazıb ki, "oğul səni görmək istəyirəm..."

-Saxla-saxla görüm. Xəbərim var, mən də almışam. Onu qatla qoy bir qırağa, görmürsən onnan vacib işlər çıxıb ortalığa.

Hikmət də uzatmadı.

-Yaxşı, hələlik, zəngləşərik.

- Xudahafiz". Və sanki oxucusuna deyir ki, kənddə əlacsız qalıb zarıyan ana təkcə bu nankorların anası deyil, necə ki, Qarabağ bizim hər birimizin göynəyən yarasıdır. Bir anlığa mənə elə gəlir ki, hekayədə ananın adı təsadüfi olaraq Səltənət ana verilməyib və Səltənət ana əvəzinə Qarabağ ana yazsaq, heç nə dəyişməzdi.

Yol gözləyən ananın intizarlı dəqiqələri, qonşu qızı Şəfiqənin təskin edici sözləri heç nəyi həll eləmir müəllifin reallığa sədaqəti o qədər güclüdür ki, birdən oxucu hadisələrin içindən çıxıb şəhərəcən qaçmaq istəyir. Analarını ölüm ayağında qoyub onu unutmuş oğullarını tapmaq istəyir, onların yaxasından yapışmaq istəyir. Bütün varlığı ilə bu yaddaşsızları aralığa çəkib, ictimaiyyətin mühakiməsinə vermək istəyir. Və bu yerdə qonşu qızı Şəfiqənin qucağında olan ananın son həyat harayı, son nəfəsi ilan dili çalır. Və hər kəsi yalayıb keçir: "Öskürək arvadı boğdu, xeyli xırıldayıb özünə gəldi. Onun gözləri yol çəkdi. Çinar boylu oğlanları - Neməti, Hümbəti, Hikməti, Rüfəti gözlərinin qabağına gəldi..." Axı bu oğullar niyə unudublar ki, ana onları atalarının yoxluğundan sonra (hər halda əsərdə belə görünür) təkbaşına böyüdüb. Onların evlənmək qayğılarını çəkib, ayaqları yer tutanacan, oğul-uşaq sahibləri olanacan evlərinin qaraçuxası olub. Nəvələrini böyük analıq təcrübəsi ilə hifz eləyib. Bir sözlə, şəhərin sayılıb-seçilən oğulları olublar. Təfərrüatra varmağa lüzum görmürük. Növbəti teleqramı Şəfiqə öz dilindən vurur. Ananın son nəfəsdə olduğunu bildirir. Yenə qardaşların canına istilik keçmir, yenə onlar öz qayğılarındadır, yenə öz karyeralarını düşünürlər.Təzəcə qohum olduqları nazir Orduxanovun məruzəsində Nemətin adı xoşniyyətlə çəkilir. Və bunu qardaşlar bayram eləyirlər. Yenə söz-söhbət hərlənib Şəfiqənin teleqramı üzərinə gəlir. Vaxtilə evlərinin qaraçuxası olmuş ananı indi kimsə öz yanına gətirmək istəmir. Belə bir gərgin vəziyyətdə telefon zəng çalır. Və müəllif qardaşları düşdükləri çıxılmazlıqdan "xilas" edir: "Nemət dəstəyi qaldırdı.

-Bəli, eşidirəm.

-Mənə Nemət müəllim lazımdı.

-Buyurun, eşidirəm.

Xəttin o başından gələn səs bir anlıq kəsildi...

-Danışan Səltənət xalanın qonşusudu, adım Şəfiqədi. Dünən axşam Səltənət xalanı gətirdim xəstəxanaya, evinizlə üzbəüz xəstəxanaya elə çatan kimi...

Qız hönkürdü...

Dəstəkdən qırıq-qırıq səslər gəlirdi: dud, dud, dud..."Beləcə telefondakı son sədalar həyəcan təbili kimi səslənir. Borc hissinin unudulmasından yazıçı narahatlığını, yazıçı həyəcanlarını ifadə edən bu səslər bu gün də cəmiyyətimiz üçün aktualdır.

Borc hissi unudulanda cəmiyyətin harmoniyası pozulur, mənəvi nizam dağılır.

Borc hissi yaddan çıxanda Səltənət ana kimsəsizlik iztirabları içərisində zarıya-zarıya can verir. Borc hissi arxa plana keçirsə, Qarabağ işğal olunur.

Şəfəq Nasirin "Borc" hekayəsi bu günlə səsləşən çox mətləblərdən xəbər verir.

*Əli Rza XƏLƏFLİ*

*10.08.2020*